COP29
Baku
Azerbaijan

# COP29 Könüllülük Proqramı

## Tez-tez verilən suallar

# COP29 könüllüsü kimdir?

COP29 könüllülərinin məqsədi tədbirin keçirilməsinə dəstək vermək və iqlim dəyişmələri ilə bağlı problemlər və həll yolları haqqında məlumatlılığı təşviq etməklə konfransın uğuruna fəal töhfə verməkdir. COP könüllüləri iqlim mövzusunda təkmilləşdikdə, COP29 başa çatdıqdan uzun müddət sonra da müsbət təsir və mənalı dəyişikliyin əbədi mirası olaraq qalmağa davam edəcəklər.

# COP29 nədir?

COP qlobal istiləşməni mümkün qədər 1,5°C-yə yaxın səviyyədə saxlamaqla bağlı Paris Sazişindən irəli gələn əsas məqsədə nail olmaq üçün hökumətlərin beynəlxalq səyləri qiymətləndirdiyi Tərəflər Konfransının rəsmi tədbiridir.
Bu konfrans zamanı dünya liderləri Tərəflərin öhdəlikləri üzrə irəliləyişlərini qiymətləndirmək və iqlim dəyişmələri ilə mübarizədə ən yaxşı həll yolları barədə müzakirələr aparmaq məqsədilə bir araya gəlirlər. Növbəti konfrans (COP29) noyabr ayında Bakıda keçiriləcəkdir.

# Mən niyə könüllü olmalıyam?

COP29 könüllüsü olmaq iqlim konfransının bir hissəsi olmaq, mehriban və dinamik komandaya qoşulmaq üçün bir fürsətdir. Könüllülük yeni insanlarla tanış olmaq, maraqlı yeni mühitlərdə özünüzü görmək, əlamətdar hadisələrdə ölkəni təmsil etmək, eyni zamanda, öyrənmək, başqalarına kömək etmək və idarəetmə bacarıqlarını aşkara çıxarmaq üçün əvəzolunmaz bir platformadır. Yeni bacarıqlar əldə etmək və ölkəmizə töhfə vermək istəyən hər bir şəxs bizə müraciət edərək könüllü ola bilər.

# COP29-da kimlər könüllü ola bilər?

Könüllülük  fəaliyyəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan edilməyən, işlərin görülməsi və ya xidmətlərin göstərilməsi ilə bağlı ictimai faydalı və gəlirsiz fəaliyyət hesab olunur. Könüllülük fəaliyyətində iştirak etmək arzusunda olan 16 yaşdan yuxarı olan hər bir şəxs könüllü kimi tədbirə qoşula bilər. Bununla, könüllülər COP29 tərəfindən keçirilən müxtəlif tədbir, layihə və noyabr ayında keçiriləcək konfransda iştirak edə biləcəklər. COP29 könüllüləri konfrans təşkilatçılığının müxtəlif istiqamətləri üzrə, eləcə də, iqlim dəyişmələri və ekologiya sahəsində bilik və təcrübəyə malik, konfrans müddətində və konfransdan öncə keçiriləcək tədbirlərdə iştirak edə biləcək, yüksək təşkilatçılıq, ünsiyyət və komandada işləmək bacarıqları olan, müxtəlif dil biliklərinə sahib şəxslər olmalıdır.

## COP29 könüllüsü olmaq üçün hər hansı sahədə ixtisaslaşmış və ya xüsusi təlim almış olmalıyam?

Rollarımızın hər hansı birinə müraciət etmək üçün heç bir xüsusi ixtisas və ya təlim tələb olunmur. Əgər COP29 tərəfindən ünvanlanan mövzulara aid bir ixtisasınız varsa və ya həmin sahə üzrə işləyirsinizsə, lütfən bunu ərizənizdə qeyd edin. Tədbirdə iştirak üçün tələb olunan təlimlər COP29 komandası tərəfindən könüllülərə tədris olunacaqdır.

## Mən COP29-da necə könüllü ola bilərəm?

COP29 Könüllülük proqramına qeydiyyat artıq bitib.

## Könüllü kimi müraciət etmək üçün yaş limiti varmı?

Bəli. 1 oktyabr 2024-cü il tarixə qədər 18 yaşı tamam olan və yaşı 18-dən yuxarı olan namizədlər sərbəst müraciət edə bilərlər. 1 oktyabr 2024-cü il tarixə qədər 18 yaşı tamam olmayan və 16 yaşı tamam olan namizədlər isə müsahibəyə gələrkən valideynin notarial qaydada təsdiq olunmuş icazə ərizəsini gətirməlidirlər. Maksimum yaş limiti isə yoxdur. 1 oktyabr 2024-cü il tarixə qədər 16 yaşı tamam olmayan şəxslərin qanunvericiliklə könüllü olmasına icazə verilmir.

## Xarici vətəndaşlar COP29-da könüllü ola bilərlərmi?

Bəli. Həm Azərbaycanda yaşayan xarici vətəndaşlar, həm də xaricdə yaşayan şəxslər COP29-da könüllü ola bilərlər.

## COP29-da könüllü olmaq üçün tələbə olmaq zəruridirmi?

Xeyr, biz təkcə tələbələrin yox, minimum yaş tələbinə cavab verən bütün namizədlərin müraciətlərini qəbul edirik.

## İngilis dilində danışa bilməyən şəxslər COP29-da iştirak edə bilərmi?

Könüllülər üçün nəzərdə tutulan bir neçə vəzifələr var ki, ingilis dilində sərbəst danışma və anlama bacarığı tələb edir. COP29 çərçivəsində ölkəmizə əhəmiyyətli sayda xarici qonaqların gələcəyini nəzərə alaraq seçimlər zamanı xarici dil biliyi olan könüllülərə üstünlük veriləcəkdir.

## Mən xüsusi bir sahədə könüllü olmaq istəyirəm. Bu mümkündürmü? Mən nə etməliyəm?

Əgər sizin hər hansı sahədə xüsusi fərdi bacarıqlarınız varsa, və ya xüsusi bir sahədə könüllü kimi iştirak etmək istəyirsinizsə, zəhmət olmasa, müsahibə zamanı bunu qeyd edin. Xahiş edirik, nəzərə alın ki, seçim prosesində sizin istəyiniz nəzərə alınmaya bilər.

## COP29 könüllüsü kimi seçilmək üçün mənim könüllülük təcrübəm olmalıdırmı?

COP29 könüllüsü olmaq üçün əvvəlki könüllülük təcrübəsi zəruri deyildir.

## Seçim prosesinin meyarları nələrdir?

Seçim prosesi bir neçə mərhələdən ibarətdir və buraya sizin bacarıq və profilinizin bizim seçim meyarlarımıza uyğunluğunun yoxlanılması, müsahibə və təlimlərdə iştirak daxildir. Xüsusi təcrübə və qabiliyyət tələb edən müəyyən könüllü vəzifələri üçün biz yenidən seçimlər keçirə bilərik.

## COP29 könüllüsü olmaq üçün sadəcə qeydiyyatdan keçmək kifayətdirmi?

Xeyr, siz seçim prosesindən və müsahibədən keçməli və təlimləri uğurla tamamlamalısınız.

## COP29-da könüllülük fəaliyyətim üzrə vəzifəmi özüm seçə bilərəmmi?

Vəzifəniz müsahibə nəticələrinizə, bilik və bacarıqlarınıza müvafiq olaraq təyin ediləcəkdir. Seçim zamanı namizədin xarici dil biliyi, motivasiyası, təcrübəsi kimi bacarıqlara üstünlük veriləcəkdir.

## Mən könüllülər qrupuna dostumla birlikdə qoşula və sonra eyni qrupda onunla birlikdə işləyə bilərəmmi?

Biz sizin öz dostlarınızla birlikdə ərizə təqdim etməyinizə etiraz etməsək də, COP29 ərzində sizin birlikdə işləyəcəyinizə söz verə bilmərik. Biz inanırıq ki, siz könüllü kimi təcrübə əldə etdiyiniz müddət ərzində də çoxlu yeni dostlar qazanacaqsınız!

## Müraciətimin nəticəsi nə zaman elan olunacaq?

Bütün müsahibələr yekunlaşdıqdan sonra yalnız müsahibədən uğurla keçən namizədlər Ümumi təlimlərə dəvət alacaqlar.

## Könüllülər üçün hansı təlimlərin keçirilməsi nəzərdə tutulub və bu təlimlər üzrə sertifikat təqdim olunacaqmı?

Təlim sizin COP29-da təyin olunduğunuz vəzifənizi icra etməyə hazır olmağınızı təmin edəcək və bu vəzifənin öhdəsindən uğurla gəlmək üçün tələb olunan müvafiq məlumat və bacarıqları özündə ehtiva edəcək. Təlimləri uğurla tamamlamış COP29 zamanı könüllü olan namizədlər konfransdan sonra sertifikat əldə edəcəklər.

## COP29 məni könüllü olduğumu sübut edən sənədlərlə təmin edəcəkmi?

Bəli, biz könüllüləri təlim proqramının tamamlanması və COP29-da uğurlu fəaliyyətə görə sertifikat ilə təmin edəcəyik.

## COP29 Könüllülük proqramının fəaliyyət istiqamətləri hansılardır?

COP29 könüllüləri Azərbaycanı dünyanın hər yerindən gələn nümayəndələrə layiqincə təmsil etmək, konfrans və konfrans məkanı haqqında əsas məlumatları düzgün şəkildə təqdim etmək, paytaxtımızın nəqliyyat sistemi və yol hərəkəti qaydaları haqqında məlumat vermək və Bakının ən gözəl yerlərini tanıtmaq istiqamətində fəaliyyət göstərəcəklər. Könüllülər bir sıra məkanlarda fəaliyyətdə olacaq, nümayəndələrə məlumat verəcək, sualları cavablandırmağa kömək edəcək və şəhərin mərkəzində və ətraf ərazilərdə istiqamətləndirməklə, Azərbaycanın qonaqpərvərliyini nümayiş etdirəcəklər. Könüllü rolları COP29 Könüllüləri komandasının üzvləri tərəfindən aşağıdakı sahələr üzrə müəyyən olunacaqdır:

- Protokol
- Nəqliyyat
- Hotellər/Mehmanxanalar
- İşçi qüvvəsi əməliyyatları
- Məkan əməliyyatları
- Hava limanı əməliyyatları
- Şəhər əməliyyatları
- Tibb/İlkin yardım
- Uniforma və Akkreditasiya
- Media əməliyyatları və s.

## Təlimlərin nəzərdə tutulan sayı və müddəti nə qədərdir?

Təlimlərin müddəti, sizin təyin olunduğunuz vəzifədən asılı olaraq dəyişə bilər, lakin orta hesabla hər biri 2-3 saat olmaqla üç və ya daha çox təlim sessiyasının keçirilməsi nəzərdə tutulmuşdur.

## Səfər, yaşayış yeri və ya digər xərclərim COP29 Əməliyyat Şirkəti tərəfindən qarşılanacaqmı?

Proqram çərçivəsində könüllülər qida, uniforma və tədbir məkanına gediş-gəliş üçün ictimai nəqliyyatdan pulsuz istifadə ilə təmin olunacaqlar.

## Könüllülük proqramının iştirakçılarına ödənişin edilməsi nəzərdə tutulubmu?

Xeyr, könüllülük tam ödənişsiz fəaliyyət sahəsidir. COP29-da könüllü olmaqla siz, təlimlərdə yeni bilik və bacarıqlar öyrənəcək, dostlar qazanacaq, iş təcrübəsi əldə edəcək, xatirə hədiyyələr və sertifikatla mükafatlandırılacaqsınız.

## Müsahibə və təlimlərdə onlayn iştirak etmək olarmı?

Təlimlərdə əyani iştirak mütləqdir, lakin bəzi xüsusi hallar (sağlamlıqla bağlı çətinliyiniz və ya ölkədə olmadığınız təqdirdə) nəzərə alınaraq müsahibənin onlayn şəkildə təşkil edilməsinə baxıla bilər.  Zəhmət olmasa, bu barədə öncədən COP29 Könüllülər üzrə çağrı mərkəzinə zəng edə **(+994 12 535 29 28)** və ya **volunteers@cop29.az** elektron poçt ünvanına elektron poçt göndərərək məlumat verə bilərsiniz.

## Mən yalnız təlim keçdiyim sahə üzrə işləyəcəyəm yoxsa başqa sahələrdə də fəaliyyətim olacaq?

COP29-un keçirilməsi kollektiv güc tələb edən bir işdir və bəzi hallarda bizim hamımızdan zərurət yarandıqda başqa fəaliyyət sahələrində, eləcə də, öz sahələrimizdə əlavə dəstəyə ehtiyac yarana bilər.

## COP29-un başlanğıcından sonuna qədər işləmək məcburidirmi yoxsa mən sadəcə bir neçə gün ərzində könüllü kimi işləyə bilərəmmi?

Biz COP29 ərzində könüllülərdən ən azı 10 gün işləməyi tələb edəcəyik.

## Səhhətimlə bağlı xüsusi pəhriz yeməkləri yeməyim vacibdir, COP29 vaxtı bu nəzərə alınacaqmı?

Tədbir zamanı konkret menyu olacaqdır. Xahiş edirik bizi əvvəlcədən məlumatlandırın. Sağlamlıqla bağlı məsələlər olduqda çalışacağıq ki, bunu nəzərə alaq.

## Təlimlərdə iştirak edə bilməsəm materialları mənə elektron göndərə bilərsinizmi?

Təlimlərdə iştirak mütləqdir, yalnız istisna hallarda (sağlamlıqla bağlı çətinliyiniz və ya ölkədə olmadığınız təqdirdə) tədris materialları sizə elektron göndərilə bilər.

## Xaricdə yaşayıramsa müsahibədə necə iştirak edə bilərəm?

Əyani müsahibədə iştirak etmək imkanınızın olmadığı təqdirdə, onlayn formatda müsahibədə iştirak edə bilərsiniz.

## Müsahibə və təlimlərdən uğurla keçib könüllü kimi dəvət almaya bilərəmmi?

Əgər uğurlu könüllülərin sayı könüllü vəzifələrinin sayından çox olarsa, bəzi könüllülər rezerv statusunda qalacaqlar.

## Əgər könüllü kimi cəlb olunsam, dərslərdə və imtahanlarda mənə güzəşt olunacaqmı?

COP29 Əməliyyat Şirkəti olaraq tələbələrin dərslərdə iştirakının və imtahanlardan uğurla keçmələrinin tərəfdarıyıq.

## Konfrans vaxtı öz rəhbərimlə necə əlaqə saxlaya bilərəm?

Siz rol təlimlərinə dəvət aldıqda bu barədə proses sizə izah olunacaq.

## Mənə təyin olunmuş müsahibə vaxtını dəyişmək mümkündürmü?

Bəli, əsaslı səbəb olarsa müsahibə vaxtını yalnız 1 dəfə dəyişmək mümkündür.

## Qeydiyyatdan keçdikdən sonra şəxsiyyət vəsiqəsi dəyişdirilərsə, bununla bağlı nə etmək olar?

Şəxsiyyət vəsiqəsinin dəyişdirilməsi ilə bağlı çağrı mərkəzimiz ilə əlaqə saxlaya bilərsiniz **+994 12 535 29 28** və ya **volunteers@cop29.az** ünvanına elektron poçt göndərə bilərsiniz.